**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI**

**QƏRAR**
**№ SQ-06/2021-1**

**Naxçıvan şəhəri** **10 fevral 2021-ci il**

# Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 09 fevral 2021-ci il tarixdə keçirilmiş iclas protokolunun və “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərdə deputatlığa namizədliyin təsdiq edilməsi və qeydə alınması üçün dairə seçki komissiyasına təqdim olunan seçki sənədlərindəki məlumatların yoxlanılması və namizədlərin qeydə alınması” Qaydalarının təsdiq edilməsi barədə

Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 20.4-cü, 20.13-cü, 23.3-cü, 23.4-cü, 23.6-cı, 49-cu, 50-ci, 52-ci, 53-cü, 54-cü, 55-ci və 56-cı maddələrinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası

**q ə r a r a  a l ı r:**

**1.** Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 09 fevral 2021-ci il tarixdə keçirilmiş iclasının protokolu təsdiq edilsin.

**2.** “Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərdə deputatlığa namizədliyin təsdiq edilməsi və qeydə alınması üçün dairə seçki komissiyasına təqdim olunan seçki sənədlərindəki məlumatların yoxlanılması və namizədlərin qeydə alınması” Qaydaları təsdiq edilsin.

**3.** Qərar 24 saat ərzində Mərkəzi Seçki Komissiyasının məlumat lövhəsindən asılmaq yolu ilə dərc edilsin və dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr:** **Əjdər Əliyev**

**Katib:** **Əkrəm Hüseynzadə**